# Azərbaycanın uğurları davamlıdır



**Yanvarın 18-də iqtisadi və sosial məsələlərin həlli ilə bağlı ölkə Prezidenti cənab İlham Əliyevin yanında keçirilən müşavirədə dövlətimizin başçısı bildirdi ki, Azərbaycanda həyata keçirilən bütün sosial proqramların icrası, infrastruktur layihələri davam etdiriləcək**

Azərbaycan gənc dövlət olmasına baxmayaraq əldə etdiyi uğurlar, qazandığı nailiyyətlər baxımından bir çox Avropa və dünya dövlətlərini üstələyir. Son 11 ildə ölkəmizdə həyata keçirilən iqtisadi-siyasi islahatlar öz bəhrəsini verməkdədir. Ölkəmizin gündən-günə inkişaf etməsinin əsas səbəblərindən biri düşünülmüş siyasət və bu siyasətin uğurla həyata keçirilməsidir. Təkcə onu demək kifayətdir ki, ölkəmizdə həyata keçirilən belə islahatlar sayəsində yoxsulluğun səviyyəsi aşağı düşüb, yeni iş yerləri açılıb, qeyri-neft sektoru artıq Azərbaycana gəlir gətirən sahəyə çevrilib.

Azərbaycan əlverişli təbii coğrafi şəraitə, zəngin təbii sərvətlərə malik olan ölkədir. Dünyanın istənilən regionu ilə müqayisə oluna biləcək iqlim şəraitinə, turistik zonalara, təbii müalicə mərkəzlərinə, tarixi baxımdan qədim irsə malik olan ölkəmizdə həyata keçirilən siyasətin önündə əhalinin sosial müdafiəsinin gücləndirilməsi dayanır. Bu fakt ölkəmizə gələn xarici qonaqlar tərəfindən də qeyd edilir və təqdir olunur. Eyni zamanda Azərbaycan dünyəvi, müasir texnologiyaların, mədəni və sivil institutların inkişaf etdiyi bir ölkədir. Məhz bu baxımdan da ölkəmiz qarşısına qoyduğu ali məqsədlərə çatmaqda çətinliklərlə rastlaşmır.

Ölkə iqtisadiyyatının inkişafında neft amilinə verilən önəmin uğurlu nəticələrini yaşayırıq. Belə ki, neft gəlirlərindən səmərəli istifadə iqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurla həyata keçirilməsinə stimul verir. Həyata keçirilən iqtisadi inkişaf strategiyası, büdcə vəsaitlərinin artması kompleks islahatların reallaşdırılmasına, əhalinin həyat şəraitinin, sosial vəziyyətinin yaxşılaşdırılmasına imkan verir. Regionların sosial-iqtisadi inkişafına dair brinci Dövlət Proqramının icrasının başlandığı dövrdən, yəni 2004-cü ildən bu günə qədər 1 milyon 400 mindən artıq yeni iş yeri açılıb ki, bunun da 800 mindən çoxu daimi iş yerləridir. Dünya Bankının məlumatına görə, milli gəlirin ədalətli bölgüsünə görə, Azərbaycan 110 inkişaf edən ölkəni geridə qoyur. Hesabata görə ölkəmiz dünyanın 153 ölkəsi arasında ən aşağı yoxsulluğa malik 20 ölkədən biridir. Bu göstəricilər bir daha sübut edir ki, Azərbaycan qarşısına qoyduğu məqsədlərə çatıb. Ölkəmizin başçısı cənab İlham Əliyev bildirmişdir ki, hazırda Azərbaycanın qarşısında duran əsas məqsədlərdən biri ölkədə yoxsulluğun səviyyəsini minimuma endirilməsidir: “Əlbəttə, biz Azərbaycanda bütövlükdə yoxsul təbəqənin olmamasını istəyirik və bu yöndə işlərimizi davam etdiririk. Lakin hələ də ehtiyac içində yaşayan insanlar var və dövlət onlara yardım əli uzadır. Bu böyük vəsait tələb edir, lakin bu vəsaitlər ayrılır”. Bu, yöndə islahatlar davamlı olaraq aparılmaqdadır və nəticə etibarilə əgər 2003-cü ildə Azərbaycanda yoxsulluq şəraitində yaşayanlar 49 faiz idisə, hazırda bu göstərici 5 faizə enib. Bu göstəricilər onu deməyə əsas verir ki, həyata keçirilən iqtisadi inkişaf siyasəti 5-10 il bundan öncə reallaşdırılması mümkün hesab olunmayan sosial proqramları belə reallaşdırmağa imkan verir.

Ölkəmizdə sosial-iqtisadi inkişafın sürətləndirilməsi və mükəmməl infrastrukturun formalaşdırılması istiqamətində həyata keçirilən layihələr, müxtəlif ölkələr və beynəlxalq təşkilatlarla qurulan ikitərəfli və çoxtərəfli əlaqələr, irimiqyaslı tədbirlərin təşkili sayəsində qazanılmış zəngin təcrübə son illər Azərbaycanın region, qitə və dünya səviyyəli forumlara, konfranslara, zirə toplantılarına və idman yarışlarına ev sahibliyi etməsinə şərait yaradır.

Yanvarın 18-də Azərbaycan Prezidenti cənab İlham Əliyevin yanında iqtisadi və sosial məsələlərin həlli ilə bağlı keçirilən müşavirədə ölkəmizin başçısı bildirdi ki, 2016-cı ilin ilk günlərində dünyada hökm sürən böhranın nəticələri bizə də müəyyən dərəcədə təsir edib. Buna baxmayaraq, Azərbaycan qeyri-neft sektorunun inkişafı və bunun nəticəsində ölkəmizin əldə etdiyi naliyyətlər hesabına bütün dünyanı ağuşuna alan böhrandan ən az zərərlə çıxan ölkələr sırasındadır: “ Biz müstəqil dövlət quruculuğu işində çox böyük uğurlara nail ola bilmişik. Bu gün Azərbaycan dünya miqyasında sürətlə inkişaf edən ölkədir. Son 10 il ərzində dünya miqyasında Azərbaycan qədər sürətlə inkişaf edən ölkə olmamışdır. Bu, həqiqətdir, reallıqdır və bunu bütün göstəricilər təsdiqləyir. Beynəlxalq maliyyə qurumlarının hesabatlarında Azərbaycanda əldə edilmiş uğurlar daim qeyd edilir. Biz son illər ərzində Azərbaycanda əldə edilmiş uğurları qoruyacağıq, ölkəmizin sürətli inkişafını təmin edəcəyik. İmkan verə bilmərik ki, kimsə bu vəziyyətdən öz şəxsi maraqları üçün istifadə etsin. Bu il bütün sosial proqramlar icra ediləcək. Bu məsələ ilə bağlı heç kimin şübhəsi olmasın. İnsanların sosial müdafiəsi ilə bağlı olan əlavə tədbirlər də görülməlidir”.

Şəfiqə Dadaşova,
*“İki sahil”*